ədalət 2019.- 22 iyun.- S.16.



# Allah və İnsan

***Qəşəm İsabəyli***
***Beynəlxalq Andersen Şərəf Diplomu laureatı***

İnsanlar heyvani dövrlərində daha xoşbəxt idi.

Biri var idi, biri yox idi, bir "Var" var idi, bir də "yox".

"Var" - Allah idi, "yox" - insan.

Qalan heç nə "var"- "yox"dan sayılmazdı.

Allah elə böyük idi, elə böyük idi, qurd da bilirdi, Allahdı bu, quş da bilirdi Allahdı bu.

İnsan elə balacaydı, elə balacaydı, hətta sətrin başında belə adını balaca hərflə yazardı.

O da var ki, insan naşükür deyildi - Allahın böyük-lüyünü də görürdü, özünün kiçikliyini də. Çünki təzə yağan qardan da təmiz idi - danışanda dodaqlarında sözü görünürdü, gülәndə gülüşü.

Allahın heç kimlə ortaqlı malı olmazdı. Amma insanda Allahın balaca bir varlığı zühur eləmişdi. Bu, insanın ağlı idi. Ağlı olmasaydı, Allahlıq eşqinə düşərdi insan.

Bütün günü də əli işdə olardı, ayağı köçdə. Gün batan kimi də başını atıb yatardı.

Axı Allah boş-bekar dayanmazdı - bir əli yaradardı, bir əli dağıdardı.

Allahın şəninə söz də qoşmuşdu insan:

**Verən - Sənsən, alan - Sən,**
**Heç bilməzsən yalan - Sən.**
**Gah bir otaq bəzərsən,**
**Gah salarsan talan - Sən!**

Günlərin birində Allah sakitcə oturduğu yerdə yadına nə düşdüsə, gülümsədi. Lap fikrimdən çıxmışdı, Allah bir gülümsəmək bilirdi, bir də düşünmək. Gülümsəyəndə Yer-Göy nura boyanırdı. Düşünməyə başlayan kimi də dünya-aləm batıb bulanırdı qaranlığa. Hər şeyə qadir Allah bircə ağlamağı bacarmazdı.

**(əfsanə)**

Köhnə kitablardan oxuduğumdan bilərəm - dünyanın sonunda - yaradıb-qurduqlarının dağılıb getdiyini görəndə ağlayacaq, deyirlər, Allah!

Bəli, Allah xəyala gedib, gülümsəyən kimi, bir dəstə insan ağlını itirib, həmcinsindən ayrıldı.

Başlarını silkələyə-silkələyə -

Biri ulayıb, girdi çoxluğa[1].

Biri mələyib, qoyun sürüsünə təpdi özünü.

Biri hürüb, itə qoşuldu.

Biri kişnəyib, at ilxısına soxuldu.

Biri anqırıb, özünü verdi ayı kahasına.

Biri vəkkildəyib, tülkü oldu...

Gəl ki...

Çoxluq insanı parçalayıb yedi.

Qoyun kəlləleyib çıxartdı sürüdən. Bayaq qarğa-quzğun töküldü üstünə.

İt leşini dartdı.

At təpiyinin altına saldı.

Ayı elə...

Tülkü belə...

Bu yandan da insanın başından çıxan ağlı düşdü dünya üzünə - gəzdi... gəzdi... gəzdi...

Biri gedib girdi itin kəlləsinə, it "hammm" eləyib, dönüb oldu insan.

Biri gedib girdi atın kəlləsinə, at "hi-ha" deyib, dönüb oldu insan.

Qurd "uuu..." eləyən kimi düşdü insan cildinə.

Qoyun bu yandan...

Ayı o yandan...

Tülkü də...

Bayaqdan insan xalis insan idi, indi qoyundan insanı oldu, atdan insanı oldu, itdən insanı oldu, qurddan... ayıdan... tülküdən...

İnanmaq üçün sadəcə insanların sifətinə diqqətlə baxmaq lazımdı.

Day güləndə gülüşü gördünmədi insanın, danışanda sözü.

Adını da başladı böyük hərflə yazmağa: - İnsan - Allah.

**[1]Canavar sürüsü (müəl.)**